# “BİR DAMLA SEVİNC”

“Seçdiyim Həyat Mənimdi” yazan Altel Çağla 25.05.2025

**Janr:** Dram
**Alt janrlar:** Özünü kəşf, Həyatdan bir parça, Sosial Realizm, Qadın mərkəzli hekayə
**Ton:** Sakit, emosional dərinlikli, poetik

**Loqlayn:** Bakıda nəzarətçi ailəsinin basqısından qaçan gənc bir həkim qadın, təhlükə altında olan kiçik şəhər kitabxanasında öz həyatının mənasını tapır...

Bu hekayə, **qadınların səssiz gücünü**, **seçim və mərhəmətin gözəlliyini** və **ailə ilə azadlıq arasında olan incə balansı** göstərir.

**QISA SİNOPSİS**

Damla - gənc bir həkimdir. Şəhərdə onu nəzarətdə saxlayan ailəsindən qaçaraq kiçik bir şəhərə gəlir. Burada Kitabxanaçı Sevinc və iki yetim uşaqla dostlaşaraq, kitabxananı həris iş adamından qorumaq üçün mübarizə aparır. Lakin onlar mübarizəni güclə deyil, birlik və mərhəmətlə aparılırlar — yarışda belə rəqibləri təhlükəyə düşəndə onlara tərəddüt etmədən kömək edirlər. Damla ailəsini ziyarət etdikdə onlar qızlarını peşmanlıqla qarşılayırlar. Damla bağışlayır, amma öz yolundan dönmür. Yeni həyatına — azad, dəyərli və seçdiyi insanlar ilə birlikdə — qayıdır.

Burada qadınların qurban deyil, öz seçimini edən güclü fərdlər olduğu aşikardır. Bu hekayə, reallığımızda, lakin hər kəsin ürəyinə toxunacaq universal dəyərlərlə doludur.

**Kitablar və Kitabxanaya olan münasibət Qəhrəmanların dilindən:**

**Damla:** Həyətdəki uşaqlardan fərqlənirdim. Evcik-evcik oynarkən belə mən detektiv rolunu özümə götürürdüm. Artıq o vaxtdan kitablar məni başa düşən dostlarım idi. Hekayədəki qəhrəmanları görüb tək olmadığımı başa düşmüşdüm.

**Sevinc:** Kitabxana ilk ayaq basdığım an bura məni ovsunlamışdı. Kitabları oxuduqca neçə fərqli və özümkündən daha maraqlı həyatlar yaşaya bilmişdim.

**Çöhrə və Nadir**: Bizim üçün kitabxana evimiz kimidi. Sevinc isə bizim ailəmizdi. Burada biz özümüzü aid və təhlükəsizlikdə hiss edirik.

**ƏTRAFLI SİNOPSİS**

## Əsas Emosional Məqamlar üzrə Akt Strukturu

| Akt | Əsas Emosional Məqamlar |
|---|---|
| **Giriş** | Damlanın uşaqlığında fərqli olması. Daxili dünyası. (Sakit üsyan). |
| **I Akt** | Ailə təzyiqi, xəstəxana həyatı, sonuncu təkan (yaşlı pasiyent). Qaçış. |
| **II Akt** | Kiçik şəhərə gəliş, Sevinc və uşaqlarla vaxt keçirmək. (Ümidin qayıdışı). |
| **Yeni Orta Nöqtə** | Keçmişin xatirələri: sevgi dolu valideynlər və son zamanların ağrısı. Emosional qırılma nöqtəsi. |
| **III Akt** | Birlik olunub mübarizə aparma. Damla seçimini edir. Yarış və mənəvi zəfər. |
| **IV Akt** | Valideynləri ziyarət. Bağışlama, amma azadlıq qorunur. |
| **Sonluq** | Seçilmiş insanlarla ilə birgə. (Hüzur. Məqsəd. Mənlik). |

**1. Giriş / Uşaqlıqdan Bir Baxış (Proloq tərzində)**

**Ton:** Düşündürücü, bir az nostalji dolu.

**Məzmun:** Uşaqlıq səhnələri: Damla digər qızlar kimi "evcik-evcik" oynamır. O, bu hekayədə detektiv roluna girirdi. Uşaqlar oyuncaqları ilə ana rolu oynayanda, o oyuncaqlarını mistik varlıqlar və gəlmələr kimi görüb onların əhilləşdiricisi olurdu. Başqaları toy gəlinliklərini çəkərkən o, pəri kraliçalarının libaslarını çəkirdi.

**Məqsəd:** Onun şəxsiyyətini, daxili dünyasını və ənənəvi qadın rollarına uyğun gəlmədiyini göstərmək.

**2. I Akt – Azadlığa Can Atmaq**

**Məkan:** Müasir Bakı, sərt bir ailə.

**Əsas hadisələr:**

- Damla yeni həkim kimi çalışır. Bu sahəni valideynlərinin istəyi ilə seçib.
- Valideynləri onun həyatını nəzarətdə saxlayır: kitab oxumasın deyə işıqları söndürür, otağını kilidləyir, onu pula görə evləndirmək istəyirlər.
- Ağbirçək bir pasiyent ona deyir: “Öz həyatını yaşamalısan. Bu, sevdiklərini belə arxada qoymaq bahasına olsa da.”
- Damla hər şeyi arxada qoyur — maşınını, gəlirlərini və "daha da göndərəcəyəm" sözləri olan bir məktubu.

**3. II Akt – Kiçik Şəhərə Gəliş**

**Yeni Məkan:** Gözəl təbiəti və arxitekturası olan, amma sosial çətinliklərlə üzləşən bir qəsəbə tipli şəhər.

**Yeni Personajlar:**

- **Sevinc** — mərhəmətli kitabxanaçı, mərhum nənəsi tərəfindən böyüdülüb.
- **Çöhrə və Nadir** — kitabxananı sığınacaq sayan bacı-qardaş yetimlər. Nadir bir neçə dəfə övladlığa götürülmək istənilsə də, bacısını da istəməyənlərlə getməkdən imtina edib.

**İlk Görüş:**

- Sevinc yeni tapdığı kitabları kitabxanaya daşıyarkən yolda yıxılır — Damla ona kömək edir.
- Danışırlar. Sevinc Damlanı evinə dəvət edir və tək olduğunu öyrənəndə ona qalacaq yer təklif edir.

**Bağın Güclənməsi:**

- Damla, Sevinc və uşaqlar arasında bağ yaranır. Damla emosional olaraq sağalmağa başlayır.

**4. III Akt – Biznesmenlərlə Qarşıdurma**

**Əsas Konflikt:** Şəhərə gələn biznesmen kitabxana ərazisini lüks istirahət evləri tikmək üçün dağıtmaq istəyir.

**Antaqonist:** Xarizmatik, amma həris biznesmen. Belə deyir:

> "Bu şəhərin potensialını boşa çıxarırsız. İrəliləyiş və gəlir üçün bura lüks biznes lazımdır. Kitabxanalar çoxdan keçmişdə qalıb."

**Yeni Orta Nöqtə: Emosional Sarsıntı**

Damla artıq şəhərdə özünü rahat hiss etdiyi, Sevinc və uşaqlarla bağ qurduğu vaxt — hələ yarış qərarı verilməmişkən — bir anlıq şübhəyə düşür.

**Bir səhnə:** Sevinc Çöhrənin saçını darayır.

**Xatirə canlanır:**

- Ata kitab gətirir.
- Ana saçını darayıb onu qucaqlayır.

- Ata gecə kitab oxumasına icazə verir.

**Sonra:**

- Qapalı otaq.
- Sönən işıq.
- Ana: “Uşaq deyilsən, amma valideynlərini bir uşaq kimi itaət etməlisən.”

**Daxili Qırılma Anı:**
Damla pıçıldayır:

> “Məni özlərinə görə sevirdilər... daha çox isə itaət etdiyimdə.”

**Buradan sonra**: O, təkcə fiziki olaraq yox, emosional olaraq da azaddır.

**Plan:** Qrup kitabxananı qorumaq üçün mübarizə aparır — zorakılıqla deyil, icma əsaslı yollarla.

**Yarış:** Onlar mükafat fondu və beynəlxalq xəbər yayımı olan bir yarışa qatılırlar.

**Yarış zamanı:** Rəqiblər təhlükəyə düşəndə kömək edirlər. İnsanlıq nümayiş etdirirlər. Yarışı qazanmasalar da cəmiyyətin hörmətini qazanırlar.

**5. IV Akt – Həll və Qayıdış**

**Valideynlərin Ziyarəti:**

- Damla verdiyi sözü yerinə yetirir, ailəsinə pul gətirir.
- Valideynləri onun axtarışında olduqlarını deyirlər, peşmanlıq içindədirlər.
- Üzr istəyirlər, dəyişəcəklərinə söz verirlər.

**Emosional Qapanış:**

- Damla bağışlayır, amma müstəqilliyindən vaz keçmir.
- Yeni həyatına – seçdiyi ailəyə – geri dönür. Damla artıq daha azad, daha güclüdü.
- Onu, üzündə ürək dolusu gülümsəmə ilə Sevinc və əllərində onun üçün çəkdikləri şəkillərlə uşaqlar sevinclə qarşılayırlar.

***Bu bir son deyil, yeni başlanğıcdır.***